**ARZU ƏSƏDOVA**

**Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin Təşkilati şöbəsinin mütəxəssisi**

# GÖRKƏMLİ ƏDİB BƏXTİYAR VAHABZADƏ – 100

**Xülasə**

Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında insanı mənəvi cəhətdən kamilləşdirən düzlük, xeyirxahlıq, igidlik, millətini sevən, vətənpərvərlik kimi müsbət keyfiyyətlər tərənnüm olunmuşdur.

**Açar sözlər:** Bəxtuyar Vahabzadə irsi, birlik, vətənpərvərlik, mübarizlik

***Bəxtiyar, düşünək biz dərin-dərin.***
***Xəyallar möhtəşəm, arzular şirin.***
***Əsl sənətkarın, əsl şairin***
***Özü qocalsa da, sözü qocalmır.***



**Bəxtiyar Vahabzadə**

Azərbaycanın xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin 2025-ci ilin avqust ayında anadan olmasının 100 illiyi tamam oldu.

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin görkəmli simalarındandır. Görkəmli şair öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr vermiş, yaradıcılığının bütün dövrlərində müxtəlif janrlardan istifadə etmişdir. Onun yaradıcılığı janr etibarilə çox zəngindir. Şanlı tariximizə, doğma torpağımıza, dilimizə, mədəniyyətimizə, folklorumuza və yazılı ədəbiyyatımıza dərin köklərlə bağlı olan Bəxtiyar Vahabzadə həm də insanları milli ruhda nəfəs almağa səsləyən şair, alim, pedaqoq və vətəndaş idi.

Görkəmli şair 70-dən artıq şeir kitablarının, monoqrafiyaların və yüzlərlə məqalənin, tarixi və müasir mövzuda irihəcmli poemanın müəllifidir. O, təkcə vətəni Azərbaycanda deyil, bütün türk dünyasının şəxsiyyətinə hörmətlə yanaşdığı bir sənətkardır. Əsərləri dünya durduqca yaşayacaq, sevilə-sevilə öyrəniləcək. Ölməz sənətkar ədəbiyyat tariximizdə özünəməxsus, silinməz iz qoyub.

Bəxtiyar Vahabzadənin əsərləri həm orta məktəblərdə, həm də ali təhsil müəssisələrində tədris olunur. Onun əsərləri yeniyetmə və gənclərin milli ruhda tərbiyəsində mühüm rol oynayır.

Bəxtiyar Vahabzadə parlaq istedada malik vətənpərvər, mübariz, millətini sevən bir şairdir. Şair üçün vətən, xalq, doğulduğun, sevdiyin, torpaq naminə, insanlar naminə... yana bilərsənsə, demək ki, yaşayırsan.

Bəxtiyar Vahabzadənin poeziyası vətənpərvərlik və vətəndaşlıq nöqteyi-nəzərindən çox zəngindir. Vətənpərvərlik mövzusu xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığının ana xəttidir. Vətəninin əsl vətəndaşı olan şair xalqına, elinə-obasına bağlıdır. Bəxtiyar Vahabzadə vətəni olan şəxsiyyətdir – sözün əsl mənasında Vətəndaşdır, onun dərin inamına görə, vətəni sevməyən şəxs vətəndaş deyil, mənəvi mühacirdir. Bu hisslər onun “Azərbaycan”, “Vətəndaş”, “Ana dili”, “Vətən var”, “Çörək-vətən”, “Şəhid məzarları”, “Biz vətən üçün doğulmuşuq”, “Vətəndən-vətənə”, “Mənə nə var?” və

bir çox vətənpərvərlik şeirlərində duyulur.

Bəxtiyar Vahabzadənin poeziyası rus və bir sıra xarici dillərə tərcümə edilmişdir. Moskvada onun bir neçə kitabı nəşr edilmiş, müxtəlif illərdə rus klassiklərinin A.S.Puşkin, M.Y.Lermontov, N.A.Nekrasov və b. şairlərin yaradıcılığından tərcümələr etmiş, ingilis klassiki Corc Bayronun "Abidos gəlini" poemasını ana dilimizə çevirmişdir.

Bəxtiyar Vahabzadənin dillə bağlı fikirlərində onun tədrisi ilə əlaqəli məsələlər xüsusi yer tutur. Şairin məlum məramnaməsi belədir: özünə, milli varlığına hörmət hissləri olan hər bir kəs övladlarına ana dilini öyrətməli və vacib olanı budur ki, ana dilinədə olan məktəblərə biganəlik göstərilməməlidir. Əgər adam öz anasının dilini bilmirsə, ona hörmət etmirsə, onun mədəniyyətinin göstəricisini hansı meyarlara görə müəyyənləşdirmək olar?

Azərbaycan ədəbi dilinin inkişafında xüsusi xidmətləri olan Bəxtiyar Vahabzadə şair, ictimai xadim, vətəndaş kimi ana dilinin təbliğatçısı, qoruyucusu idi. Bəxtiyar Vahabzadənin dil qarşısında tarixi xidmətləri əvəzsizdir. Şair təkcə elmi-pedaqoji fəaliyyəti ilə kifayətlənməyib, insan qəlbinə daha tez yol tapan poeziyaya üz tutdu, sözün gücünə arxalandı.

Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığında dilə məhəbbət, anaya məhəbbətlə eynidir. Hər ikisi şair üçün doğma və əzizdir.

Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam...
Ancaq mənə,
Say öyrədib,
Ay öyrədib,
İl öyrədib;
Ən vacibi:
Dil öyrədib
Mənim anam...
Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi...
Bu dil ilə yaratmışam
Hər şerimi,
Hər nəğməmi.
Yox, mən heçəm,
Mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi – mənim anam!..

Ana dilinə münasibət şair üçün xalqa münasibətdir: dilin hörməti yoxdursa, deməli xalqa münasibət pisdir. Şair hələ 1954-cü ildə "Ana dili" şeirində dilimizə xor baxanlara qarşı amansızlıqla yazırdı.

Ey doğma dilində danışmağı ar bilən,
fasonlu ədəbazlar
Qəlbinizi oxşamır, qoşmalar, telli sazlar
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi sizlərə qənim olsun.

Şair yaxşı bilirdi ki, insanın vətən, yurd hissi onun ana dilinə ayrılmaz şəkildə bağlıdır: insanlar öz doğma dillərini itirəndən sonra onlarda həqiqi vətən hissi mümkün deyil. Ana dilinin taleyi xalqın gələcək taleyilə ayrılmaz şəkildə bağlanır. Bəxtiyar Vahabzadə həqiqətən də xalqın şairi olmuşdur. O zamanın nəbzini tuta bilən xalqın dərdinə, sevincinə şərik olan bir insan idi. Bəxtiyar Vahabzadə Azərbaycan dilini zəngin və imkanlı bir dil kimi səciyyələndirir. Görkəmli sənətkar ana dilinin təmizliyi və gözəlliyinin qorunması məsələsini ümumxalq işi, dövlət işi hesab edib, belə söyləmişdir. "Dil xalqındır. Ona görə də dilin gözəlliyi, keşiyində yalnız alim və yazıçılar, filoloq və jurnalistlər deyil, bütün xalq durmalıdır. Bu, hər birimizin vətəndaşlıq borcudur. Bu, ümumxalq işi dövlət işidir. Ata-babalarımızdan miras aldığımız ana dilimizi göz bəbəyimiz kimi qorumaq, onu cilalaya-cilalaya, öz dadı-tamı və təmizliyi ilə gələcək nəsillərə təhvil vermək müqəddəs borcumuzdur".

Bəxtiyar Vahabzadə yalnız lirikası ilə deyil, dramaturgiyası ilə də müasir ədəbiyyata öz təsirini göstərmişdir. Dramaturq kimi ilk qələm təcrübələri sayılan "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Artıq adam", "Qızıl alma", pyesləri mənəvi-əxlaqi problemlərə həsr olunmuşdur. Bəxtiyar Vahabzadənin tarixi mövzuda yazdığı pyesləri onun dramaturgiyasının ana xəttini təşkil edir. Onun "Dar ağacı", "Fəryad", "Rəqabət", "Özümüzü kəsən qılınc" kimi tarixi pyeslərində keçmişə münasibət aspektdə ifadə edilir. Bəxtiyar Vahabzadənin tarixizmin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Onun pyesləri Azərbaycan və eləcə